Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Əsrin yaşıdı Qılman İlkin

**Qılman İlkin 105 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Əsrin yaşıdı Qılman İlkin:** Qılman İlkinin 105 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Yaradıcılıq yolu əzablı, çətin və məşəqqətli yoldur. Kim bu yolu keçibsə, onun əzabına da qatlaşır, çünki bu əzabda gələcək bədii uğurların rəhni gizlənir. Ancaq həyatın da qanunları var. Sənətkar keçilmiş yaradıcılıq yoluna boylananda, dünəni ilə bu gününü müqayisə edəndə sevinir də, kədərlənir də... Bütöv bir əsrə bərabər yaşamış Xalq yazıçısı, tanınmış nasir Qılman İlkinin də ömür yolu heç zaman hamar olmamışdır. Çox eniş-yoxuşlar aşmış, acılı-ağrılı günlər yaşamışdır.

Doxsan altı illik yaradıcılığı boyu Qılman İlkin həmişə dövrün, zamanın tələbləri ilə ayaqlaşıb yazdığı hekayə, povest, roman və oçerklər də həyat həqiqətinə sadiq qalmağa çalışıb. Onun yaradıcılığı boyunca yazılan cild-cild romanlar, povestlər, dramlar içərisində sözün həqiqi mənasında yüksək sənət əsərləri az deyil. Qılman İlkin ədəbiyyata hekayə ilə gəlib, arada povestlər, romanlar, kinossenarilər yazsa da, hekayədən heç vaxt əl çəkməyib. Çalışıb ki, bu kiçik janrda bir povestdə demək istədiyini deyə bilsin. Q.İlkinin hekayələri olduqca rəngarəngdir. Qılman İlkin yaradıcılığı nəsrimizin uğurlarındandır. Onu da qeyd edək ki, onların bir çoxu gənclərin həyatına həsr edilib.

Bu il tanınmış ədib Qılman İlkinin 105 illik yubileyi keçirilir. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə "*Ömürdən bir gün də keçdi, beləcə"* adlanır və Q.İlkinin həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

Təqdim etdiyimiz bu vəsaitlə uşaqların intellektual səviyyələrinin artmasında böyük rol oynayan kitabxanaçıları oxucu cəlbində müasir tədbir formalarından istifadə etməklə maarifləndirmək istəyirik.

## I Bölmə: Həyat və yaradıcılığı haqqında

Elə yazıçılar var ki, onların yaradıcılıqları ilk baxışda ədəbi prosesdə mərkəzi, böyük planda nəzərə çarpır. Lakin, qəribəsi odur ki, eyni zamanda ədəbi prosesi, ədəbiyyatın ümumi inkişafını və ahəngini belə yazıçılarsız da qətiyyən təsəvvür etmək olmur, onların əsərlərini nəzərə almadan dövrün ədəbiyyatını tam əhatə etmək mümkün olmur. Çünki belə yazıçılar dövrlərinin ədəbi prosesi və ictimai-mənəvi həyatı ilə daxilən bağlı şəxsiyyətlərdir. Onlar ədəbiyyatda səssiz-küysüz çalışır, yazıb-yaradır, əsərləri ilə ədəbiyyatın yeni meyllərinin dərinləşməsinə bilavasitə təsir göstərirlər. Müasir Azərbaycan ədəbiyyatının, daha dəqiq desək, nəsrinin belə görkəmli ədiblərindən biri də Qılman İlkindir.

Yazıçı, Azərbaycanın Əməkdar incəsənət xadimi Qılman İlkin 1914-cü il aprelin 11-də Bakının Mərdəkan kəndində anadan olub. 1936-cı ildə indiki Pedaqoji Universitetin dil-ədəbiyyat fakültəsini bitirib. Qılman İlkin ədəbiyyata, yaradıcılıq aləminə qırxıncı illərdə gəlmişdir. Ancaq hələ tələbəlik illərində maddi çətinlik üzündən natamam qalmış aspiranturada təhsil çağlarında ədəbi yaradıcılığa ciddi həvəs göstərmişdir və bu həvəs onu bir müddət “Uşaqgəncnəşr” də baş ədəbi məsləhətçi vəzifəsində işləməyə gətirib çıxarmışdır. “Yaralı şahin” adlı ilk hekayəsi isə müharibə illərində, 1943-cü ildə dərc olunmuşdur.

Q.İlkin bir müddət daha çox uşaq ədəbiyyatı ilə bağlı yazıçı kimi tanınırdı. Lakin müharibədən sonra, daha çox isə 60-cı illərdə yazıçının bir sıra əsərləri böyük nəsrin yoluna çıxdı, bununla da nəsrinin yaradıcılıq imkanlarına öz oxucusunda dərin bir inam yaratdı. Qılman İlkin nəsrinin bir çox elə xüsusiyyəti vardır ki, bu xüsusiyyət onun əsərlərinin, nəsrinin orijinal, özünəməxsus cəhətləri olmaqla bərabər bütövlükdə

ədəbiyyatımızın ümumi inkişafı, ümumi axarı və ahəngi ilə son dərəcə sıx surətdə, üzvi şəkildə bağlıdır. Q.İlkin müasir nəsrin müxtəlif janrlarında yazıb-yaratmış sənətkardır. Hekayə, povest, roman, ssenari onun bədii nəsrinin əsas janrları olaraq qeyd edilə bilər. Xüsusilə o, bir yazıçı kimi ilkin dövrlərdə özünü hekayə janrında axtarmış və təsdiq etmişdir. Onun iki cildlik seçilmiş əsərlərində hekayə əsas janr səviyyəsində diqqəti cəlb edirdi. Və bu cəhət tamamilə təbiidir.

Qılman İlkin yaradıcılığında tarixi mövzu da mühüm yer tutur. Romanlarında inqilabçı obrazları təbii və inandırıcıdır, onların məqsədləri bir olsa da, bu məqsədi, qayəni hərə özünəməxsus tərzdə qəbul edir. Qılman İlkinin bir romançı kimi nəyə qadir olduğu "Qalada üsyan" əsərində bariz nəzərə çarpır. Romanda hər bir surətin özünəməxsus səciyyəsi ilə qarşılaşırıq.

"Qalada üsyan" (1959), "Şimal küləyi" (1962), "Hədiyyə" (1969), "Dağlı məhəlləsi" (1978), "Dəniz qapısı" (1984), "Madam Qədri" (1988), "Bakı və bakılılar" (2006) və başqa kitabların, "Kölgələr sürünür", "Yenilməz batalyon bədii filmlərinin və bir neçə televiziya filminin ssenari müəllifidir.

O, Bakı Dövlət Universitetində baş müəllim işləyib. İkinci Dünya Müharibəsi illərində Cənubi və Şimali Qafqaz cəbhələrində, habelə İranda hərbi müxbir olub, Təbrizdə nəşr edilən "Vətən yolunda" qəzetinin redaksiyasında çalışıb. "Azərbaycan" jurnalının baş redaktoru, "Uşaqgəncnəşr" və "Azərnəşr" nəşriyyatlarının direktoru işləyib. "Qırmızı əmək bayrağı", "İkinci dərəcəli Böyük Vətən müharibəsi" ordenləri, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları və müxtəlif medallarla təltif edilib. Qafqaz xalqları Ali Dini Şurasının "Paklıq" mükafatına layiq görülüb. 2009-cu il noyabrın 6-da 96 yaşında Bakı şəhərində vəfat edib.

## Yubiley tədbirlərinin keçirilməsi

İstedadlı şairimiz Qılman İlkinin anadan olmasının 105 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. “Yaradıcılıq yollarında – Qılman İlkin”, “Hamıya nəsib olmayan səadət”, “Onu xatırlayarkən”, “Əsrin yaşıdı Qılman İlkin”, “Bənzərsiz ömür yolu”, “Unudulmaz şəxsiyyət, böyük yazıçı”, “Peşəkarlıq sənətdə başlıca şərtdir...”, “Ömrün ibrət dərsləri” və s. başlıqlar verilə bilər.












## Görkəmli şəxslər Qılman İlkin haqqında

Qılman İlkin ədəbiyyat tarixində özünəməxsus mövqeyə malik sənətkarlardan biri kimi uzun illər ərzində çoxcəhətli səmərəli fəaliyyət göstərmiş və zəngin Azərbaycan nəsrinin realist ənənələri zəmnində yaratdığı qiymətli əsərləri ilə milli mədəniyyətin inkişafına töhfələr vermişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Qılman, mən sənin istedadına inanıram. Ümumi mədəni səviyyən etibarilə diqqətə layiqsən.

**Səməd Vurğun,**
*Xalq şairi*

Qılman Musayev ədəbiyyatımızın yorulmaz mücahididir.

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

İnsan üçün uzun ömür sürmək, həm də bu dövrdə gümrah, ləyaqətlə yaşamaq, bir əsrin doqquz, on ilini arxada qoyub, sonuncu on ilini gənclərlə bir sırada addımlamaq hamıya nəsib olmayan səadətdir .

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Kitab var ki, çapdan çıxar-çıxmaz unudulur. Kitab da var ki, xeyli müddət yaşayır, nəsillərə gərəkli olur, zaman-zaman ona ehtiyac və tələbat duyulur. Təkrar nəşrləri olur, ya da zahirən köhnəlsə də, vərəqləri saralsa da, oxunur, fayda verir. İnanıram ki, Azərbaycan tarixini öyrənənlər “Dərbəndnamə” yə, “Qarabağnamə” yə indi də müraciət etdikləri kimi nəinki çağdaş

nəsil, elə gələcək nəsillər də Qılman İlkinin kitabına müraciət edəcək, Bakı və bakılıların tarixini öyrənməkdə ondan faydalanacaqlar. Dediklərimin çin olacağına əminəm.

**Fuad Qasımzadə,**
*akademik*

Yazıçının müvəffəqiyyətlərindən biri, bəlkə də birincisi Bakı şəhərini, Xəzər dənizini, Abşeron kəndlərini, bağlarını yana-yana, sevə-sevə göstərməsidir. Mən inqilabdan qabaqkı Bakını görməmişəm. Bu şəhərdə yaşamamışam. Qılmanın əsərlərini oxuyandan sonra həm şəhəri, həm də hadisələrin cərəyan etdiyi şəraiti görməyə başladım.

**Əli Vəliyev,**
*Xalq yazıçısı*

Q.İlkin bu gün də gənc nəslin bədii-estetik tərbiyəsinə yönəldilən əsərlər yazır, yaradıcılıq sahəsində böyük fəaliyyət göstərir.

**Qara Namazov,**
*filologiya elmlər namizədi*

Yazıçının hekayələri ilə tanışlıq əsasında deyə bilərik ki, ədib bu janrı, onun imkanlarını və poetikasını dərindən mənimsəmişdir.

**Şamil Salmanov,**
*ədəbiyyatşünas*

Böyük insan Qılman İlkinin yaradıcılığını oxuculara tanıtmaq və qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də *"Mənalı yaşanan ömrün zirvəsi"* adlı **kitab müzakirəsidir.** Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə

ziyalı dilçinin bir çox kitabı ilə yanaşı sözü gedən kitabı, "Seçilmiş əsərlər" təqdim edilir. Şagirdlər kitabı oxuyurlar və iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. İştirakçılar və qonaqlar kitabxanın oxu zalına toplaşırlar. Kitabxanaçı hər kəsi salamladıqdan sonra yazıçı, Əməkdar incəsənət xadimi Qılman İlkin haqqında və sözü gedən kitab haqqında maraqlı söhbətə başlayır.

Qılman İlkin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə kitabxanada bir çox tədbirlər, eləcə də ***səhnəcik*** keçirmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O, şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Q.İlkinin əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə yazıçının bir sıra hekayələrini səhnələşdirə bilər. Məsələn: ədibin sevilən əsərlərindən biri olan "Körpə Siyənək balığı" hekayəsi əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik. Öncə səhnə əsərlərə uyğun olaraq, dekorasiya ilə bəzədilir. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. İştirakçı səhnəyə yaxınlaşaraq poemadan bir hissə deməyə başlayır.

***I iştirakçı:*** Dənizdə qasırğa vardı. O yalnız sübhə az qalmış sakitləşdi. Bütün gecəni çalxalanmış sular yorğun-yorğun mürgiyə daldı. Günəş boylandı. Dəniz isə hələ yuxuda idi.

***II iştirakçı:*** Salam, mavi Dəniz! Sabahın xeyir!

***I iştirakçı:*** Dəniz diksindi. Mavi gözləri aralandı. Sinəsi ehmalca qabardı:

***III iştirakçı:*** Salam, mərhəmətli Günəş!

***I iştirakçı:*** Hamıdan qabaq xırda ləpələr oyandı, ləpədöyənin yumşaq qumsallıqlarına çırpıldı. Sonra qağayılar oyandılar, bərkdən çığırışıb qanad çalmağa başladılar. Günəş dənizi də,

sahilləri də, qayalıqları da, öz bərəkətli nuruna qərq etdi. Qayalıqların oyuqlarında göz-göz sular parıldayırdı. Bu oyuqları gecəki qasırğa doldurmuşdu. Günəş oyuqlardan birində çeçələ barmağı boyda körpə bir siyənək balığı gördü. O, işıqda parıldayırdı. Körpə siyənək gözlərini açdı.

***IV iştirakçı:*** Oy, bəs dəniz hanı? Mən hardayam?

***I iştirakçı:*** Günəş onun səsini eşitdi:

***II iştirakçı:*** Gecəki qasırğa səni dənizdən çıxarmışdır.

***IV iştirakçı:*** Yox, yox! Mən burda qalmaq istəmirəm!-deyə çırpındı.

***I iştirakçı:*** Körpə siyənək dövrə vurub, üzmək istədi, lakin oyuğun daş divarına dəyib inildədi.

***IV iştirakçı:*** Mən dənizi istəyirəm. Bura darısqaldır. Darıxıram.

***I iştirakçı:*** O ağladı, hirslə yuxarı atıldı, ancaq yenə də şappıltı ilə oyuğun içinə düşdü. Əvəzində isə dənizi gördü. Sular yenə aram və göm-göy idi. Üfüqədək uzanıb gedirdi. Təzədən atılmaq istərkən Günəşin səsini eşitdi.

***II iştirakçı:*** Sən nə edirsən, səfeh körpəcik? Başının üstündə vurnuxan qağayılardan qorxmursan?

***I iştirakçı:*** Göydə doğrudan da qağayılar qaynaşırdı. O qədər də uzaqda deyildilər.

Günəş günorta yerinə qalxdı. Kiçik oyuğun suyu qızdı. Bir azdan nəfəs almaq çətinləşdi. Buna birtəhər dözmək olardı. Bəla orasında idi ki, oyuğun suyu azalırdı. Körpə siyənəyə anası öyrətmişdi ki, istidən su buxarlana bilər. Günəşə yalvarmağa başladı:

***IV iştirakçı:*** Ey böyük Günəş, yalvarıram, gizlən buludun dalında.

***I iştirakçı:*** Günəş hər zaman mərhəmətlidir. Körpə siyənəyə də acıdı. İşinin çox olmasına baxmayaraq, buludun dalına keçdi. Doğrudur, qayalar bundan sərinlədi, ancaq dənizə qovuşmaq həsrəti yenə də körpə siyənəyi rahat buraxmadı. O, dənizin sərin

yosunlu dərinliklərini xatırladı. İndi balaca dostları yəqin ki, oralarda şən-şən üzürlər. Nə xoş idi o yerlər! O yerlərə qovuşmaq, yosunlu dərinliklərə bol-bol üzmək bir daha qismət olacaqmı? Göydə çığıran bir qağayı az qala onu dimdiyinə alacaqdı. Düz başı aşağı onun üstünə cumurdu. Ancaq bu zaman xoşbəxtlik körpəciyin üzünə güldü. Yaxında güllə açıldı. Deyəsən ovçulardı. Qağayı güllənin səsinə istiqamətini dəyişib dənizə tərəf uçdu.

***IV iştirakçı:*** Mənə qasırğa lazımdır, ancaq qasırğa! Güclü ləpələr lazımdır ki, məni ağzına alıb təzədən dənizə qaytarsın. Başqa yol yoxdur.

***I iştirakçı:*** O, dərindən ah çəkdi və fikrə getdi. Günəş isə öz sözünün üstə durmuşdu. Axşamadək buluddan çıxmadı. Çeçələ barmağı qədər olan siyənək halədə oyuqda idi. Günəş onunla vidalaşdı.

***II iştirakçı:*** Salamat qal, körpəcik!

***I iştirakçı:*** Sonra o yatağa çəkildi. Dənizin üzərinə qaranlıq çökməyə başladı. Körpə siyənəyin gözlədiyi qasırğa qopmuşdu. Sübhə yaxın sular yenə yorğun-arğın düşdü. Günəş mavilikər arxasından boylanarkən, birinci körpə siyənəyi axtarmağa başladı. Onu öz oyuğunda görmədi. Sevindi ki, qəzəbli ləpələr körpəciyi yuyub dənizə qovuşdurdu.

*Tədbir dinləyicilər tərəfindən xoş qarşılandı.*

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də ***rəsm müsabiqəsidir***. Bildiyimiz kimi Qılman İlkin bir-birindən gözəl əsərlər müəllifidir. Müsabiqə zamanı xeyli sayda məktəblilər müsabiqəyə cəlb olunur və bu haqda məlumatlandırılırlar. Oxucular əsərləri oxuyaraq tanış olur və həmin hekayələrə uyğun rəsmlər çəkirlər. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Q.İlkinin əsərlərini oxuyur, həm də oxuduqları və çox bəyəndikləri əsərlərə uyğun şəkillər çəkirlər. Ən gözəl mənа

kəsb edən rəsm işləri mükafatlandırılır. Uşaqlar dahi yazıçı Qılman İlkinin əsərlərinə üz tuturlar. Ən çox diqqəti çəkən motivlər, səhnə, bir neçə xüsusiyyət ağ vərəqlərə həkk olunur. Müsabiqənin qaliblərini müəyyən etmək üçün münsiflər heyəti təyin olunur. Sözügedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər. Qaliblər təyin edildikdən sonra xüsusi diplom və fəxri fərmanlarla mükafatlandırılır, müxtəlif yazıçı və şairlərin kitabları ilə təltif olunurlar.

Bildiyimiz kimi, bu il Xalq yazıçısı Qılman İlkinin anadan olmasının 105 illiyi ilə bağlı mədəniyyət ocaqlarında, kitabxanalarda da silsilə tədbirlər, sərgilər keçirilib. Sərgilərdə yazıçının kitabları, onun haqqında nəşr olunmuş kitab və dövri mətbuat materialları, şairin fotoşəkilləri yerləşdirilib.

Onu da vurğulayaq ki, kitabxanalarda, xüsusən də Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında, digər görkəmli yazıçılar kimi, Qılman İlkinin də bədii irsinin oxuculara çatdırılması üçün əyani və şifahi təbliğat aparılır. Kitabxanada yazıçının əsərlərinin təbliği üçün kitab sərgisi, kitabxana plakatları, stend, albom, əsərlərin müzakirəsi, söhbətlər, oxucu konfranslarının, biblioqrafiq icmalların keçirilməsi, disputların, ucadan oxuların keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Həmçinin yazıçının həyat və yaradıcılığından bəhs edən slaydların nümayişi də əhəmiyyətlidir. Keçirilən tədbirlər içərisində ***kitab təhlili*** xüsusi yer tutur. Çünki kitablar oxucu zövqünün baxışlarının, hisslərinin tərbiyə edilməsində qüdrətli amildir. Kitab təbliğinin əyani təbliğat formalarından biri isə kitab sərgiləridir.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında Qılman İlkinin yaradıcılığına həsr olunmuş kitab sərgisində "Qələmlə çarpışan mücahid ömrü", "Qılman İlkin – 106" başlığı, "Sən Bakını tanıyırsanmı", "Bakı və bakılılar", "Seçilmiş

əsərləri (I cild)”, “Seçilmiş əsərləri (II cild)”, “Dağlı məhəlləsi”, “Tayqa nağılı” kitablarından sitatlar təqdim edilib.

Görkəmli yazıçımız Qılman İlkinin “Seçilmiş əsərlər”i (I cild), “Seçilmiş əsərləri” (II cild) kitablarında müəllifin hekayələri və povestləri daxil edilmişdir. Hekayələrdə müasirlərimizin gündəlik qayğılarından, onların həyatında baş verən hadisələrdən, vətənin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərmiş oğul və qızlarımızın döyüş yolundan söhbət açılır. “Dəniz həmişə göy olmur” povestinin mövzusu Böyük vətən müharibəsi illərində arxa cəbhədə baş verən olaylardan “Dağ məhəlləsi” nin mövzusu isə müasir həyatımızdan götürülmüşdür.

***Kitabxanaçı:*** Hər kəs öz qəlbində, öz ruhunda bir aləm daşıyır. Əgər insanın duyğu və düşüncələrini ara vermədən eynilə qələmə almaq mümkün olsa idi, hər bir adamın həyatı neçə-neçə roman üçün material verərdi. Belə düşüncələrlə ömür sürən, roman həyatının 96-cı ilinə yetmiş hörmətli yazar Qılman İlkindir.

O, 96 il yaşadı, Azərbaycan yazıçıları arasında misli olmayan bir uzunömürlülüyə imza atdı. Bəlkə, 100 il də yaşayardı, hətta ikinci yüzilliyə də qədəm basardı. Amma düz 96 yaşında xəstəlik ona aman vermədi. Ömrünün sonuna qədər də qələmdən, yazıdan əl çəkmədi.

Xalq yazıçısı Qılman İlkin (Musayev) bakılı idi, amma özünün dediyinə görə, onun ulu babası XVII əsrdə Dağıstandan – Teymurxanşuradan gəlib. Ulu babası kəndirbazlar dəstəsində meydan qızışdıran olub. Mərdəkana gəliblərmiş, bir dəfə kəndirbazı əvəz eləyəndə qıçı sınıb, qərara alıb ki, daha Dağıstana qayıtmasın, qalsın Mərdəkanda. Babası İsabala xarrat olub. Ailə altı qardaş, iki bacıdan ibarətdi. Qılman müəllimin böyük qardaşı Qurban Musayev də (1903-1982) yazıçı olub, pyesləri səhnədə oynanılıb. İbtidai təhsilini

Zeynalabdin Tağıyevin Mərdəkanda açdığı Bağbançılıq məktəbində alıb. Bu məktəbdə ona Feyzulla Qasımzadə və Cəfər Rəmzi dərs deyiblər. Tağıyevi necə gördüyündən söz açırdı. Deyirdi ki, Tağıyev hərdən bizim məktəbə də baş çəkirdi, o qədər sadə idi ki, heç deməzdin bu, milyonçudur. Amma ömrünün son illərini əzəbla yaşadı. Nərimanov olmasaydı bolşeviklər onun qocalığına heç baxmazdılar.

Tağıyevin məktəbini bitirəndən sonra vaxtilə "Rüşdiyyə" məktəbi adlandırılan 18 nömrəli orta məktəbdə təhsilini davam etdirib. Mərdəkan-Bakı yolu, arada xeyli məsafə var. Deyirdi ki, Mərdəkandan payi-piyada gəlirmiş Suraxanıya, oradan elektriçkaya minib gəlirmiş məktəbə. Düz beş il beləcə piyada yol gəlib. Qılman müəllim gəzməyi-dolanmağı, piyada yol getməyi çox sevirdi. Bu qədər ömür sürməyinin də bir səbəbini hər gün piyada yol getməyində görürdü. İyirminci illərdə Bakıdakı məktəblərin əksəriyyətində dərs deyən müəllimlər Türkiyədən dəvət olunmuşdular. Dərsliklərin də çoxu türk dərslikləri idi. Yerli kadrların sayını artırmaq üçün bəzən orta məktəbin yuxarı sinfini ixtisar edir, dünən məktəbli kimi partada əyləşənlərin əlinə vəsiqə verib məktəblərə müəllim göndərirdilər. Ona da belə bir "səadət" nəsib oldu - 1929-cu ildə, orta məktəbi qurtarmağına bir il qalmış 15 yaşında ikən Xaçmaz rayonunun Əhmədoba kəndinə müəllim göndərirlər. Deyirdi ki, məktəb köhnə bir binada yerləşirdi. Uşaqlar üç cərgədə əyləşmişdilər-hər cərgədə bir sinfin şagirdləri. O, kənd sovetinin sədri işləyən bir cavan oğlanın evində qalırmış. Həmin illər sinfi mübarizə illəriydi. Sovet hakimiyyəti qurulandan sonra kəndin varlıları dağlara çəkilmişdilər. Belə oldu ki, Qılman müəllim arada kitab-dəftər almaq üçün Bakıya getməli olur. Qayıdanda isə gəlib görür ki, bütün kənd matəm içindədir. Həmin cavan oğlanı-kənd soveti sədrini qolçomaqlar gecə ikən öldürüblər. Nə yaxşı ki, Qılman müəllim orada olmayıb, çünki arada ona da

xəbər göndərmişdilər ki, səni də öldürəcəyik, qızlarımızı məktəbə çəkmisən. Dərs ilini başa vurub Bakıya qayıtdı. Ömrünün oğlan çağları başa çatdı. İllər keçəndən sonra Qılman İlkin o kənddə başına gələn əhvalatları “Ömrün oğlan çağları” povestində qələmə aldı.

İctimai fəaliyyəti dövründə Qılman İlkin yazıçı kimi çox məsuldar işləmişdir. Bütün yaradıcılğı boyu 53 kitabı nəşr edilmişdir. Bunlardan dördü roman, qalanları povest və hekayələrdir. Onun “Şimal küləyi” əsəri dövlət mükatlarına layiq görülmüşdür. “Bakı və bakılılar” kitabı “Humay” mükafatı almışdır. O, azərbaycanlı yazıçılar arasında yeganə yazıçıdır ki, Qafqaz Müsəlmanları İdarəsinin Paklıq mükafatına layiq görülmüşdür. Əsərləri xarici ölkələrdə dərc edilmişdir. Bu gün də onun imzasına mətbuat səhifələrində tez-tez rast gəlmək olur. Qılman İlkin vaxtilə öz xatirələrində yazmışdır, hansı ki, o, ömrü boyu bu prinsiplə işləmişdir: “Mənə olan pislikləri və mənim başqalarına etdiyim yaxşılıqları dərhal unuduram. Çox yaşamaq istəyirsənsə, heç kəsin paxıllığını çəkmə, xeyirxah və təmiz ol”.

Kitabxanada ədibdən bəhs edən *“bir əsrlik qələm sahibi”* başlıqlı ***konfrans*** da keçirmək olar. “Konfrans ədibin “Bakı və bakılılar” əsərinin təhlili ilə bağlıdır. Konfransda yuxarı sinif şagirdləri, oxucular, ədəbiyyat müəllimləri, bir sözlə, Q.İlkin qələminə vurğun olan hər kəs iştirak edə bilər. Kitabxanaçı öncə qonaqları salamlayır, ədibin ömür yollarından və qələmindən ağ səhifələrə yağan əsərlərindən söhbət açır. Sonradan isə konfrans iştirakçıları şair haqqında məruzələr edirlər. Həmçinin kitabxanada Qılman İlkin yaradıcılığından bəhs edən sual-cavab gecəsi də, təşkil etmək olar.

*Kitabxanaçı:* Bakı haqqında nə qədər yazsaq yenə azdır. Qılman İlkini Bakı tarixinin bilicisi kimi hər kəs xatırlayır. Onun “Bakı və bakılılar” kitabında Bakı və onun qədim tarixi haqqında çox maraqlı məlumatlar əldə edəcəksiniz. Bakı milyonçuları və

ziyalıları, ruhaniləri, qoçuları və hambalları, Bakı mətbuatı, təhsil və maarifin səviyyəsi xanlıqlardan tutmuş bu günümüzə qədər paytaxtımızın mənzərəsini ustalıqla təsvir edən yazıçımızın bu əsəri oxucuya geniş məlumat verir. Ensiklopedik səciyyəyə malik bu kitabda köhnə Bakının ab-havası və təkrarsızlığı müəllifin publisistik məlumatlarında öz əksini tapmışdır. Kitabda həmçinin Sisianovun öldürülməsi, Bakıxanovlar sülaləsi, Bakı kəndləri, Nargin adasında olmuş əsirlər və H.Z.Tağıyevin mühakimə edilməsi barədə dəqiq məlumatlar qeyd edilib.

Qılman İlkin. "Bakı və bakılılar" (üçüncü nəşri). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006, 384 səh. Lisenziya AB № 022039. Respublikamızın paytaxtı Bakı keçmişlərdə necə olub? Sevdiyimiz, fəxr etdiyimiz bu gözəl Şəhər əsrlər boyu nə kimi fırtınalardan, kəşməkəşlərdən keçib, bugünkü xoşbəxt günlərinə necə qovuşmuşdur? Mərd oğulları onu necə qorumuşlar, qədim abidələrini necə hifz edib saxlamışlar. Bu adamlar özləri necə olmuşlar? Özləri ilə necə mənəvi keyfiyyətlər yaşatmışlar? Bütün bu və başqa suallara Xalq yazıçısı və Bakı tarixinin bilicisi Qılman İlkinin bu kitabında cavab tapa biləcəksiniz. Vətənimizin və onun paytaxtı Bakının keçmiş günlərinə maraq göstərən hər bir kəs üçün bu kitab çox maraqlı və qiymətlidir. Kitab nadir və əsasən ilk dəfə çap üzü görən fotoşəkillərlə zəngindir. Bakını əsrlər boyu quranlar, yaradanlar bugünkü və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar.

Unudulmaz xalq yazıçımız Qılman İlkinin 2006-cı ildə oxuculara ərməğan etdiyi **"Bakı və bakılılar"** kitabında tarixi faktlar və inandırıcı həqiqətlər çoxdur. Kitabın «Ön sözü» mərhum akademik – filosof Fuad Qasımzadənin bu gün soydaşlarına son sözü kimi səslənir: *"Çağdaş və gələcək nəsillərə doğma Azərbaycanımızı tanıtmaq hamımızın borcudur. Bu, müqəddəs bir işdir. Hər nəsil yaşadığı mühitdə göz açır,*

*onun ab — havası ilə böyüyür, necə deyərlər, hər şeyi bir növ hazır görür. Bilmir ki, gördüklərinin tarixi var, keçmişi var. Bu gün dünəndən yaranıb, sabah da bu gündən yaranacaq. Zira tarix ardı — arası kəsilməz prosesdir. Həm fasiləlidir, həm də fasiləsiz. Həyatın dialektikası belədir. Hər bir şeydə, hər bir hadisədə keçmişin qalıqları, indinin əsasları, gələcəyin isə rüşeymləri olur. Tarix və çağdaşlıq qırılmaz tellərlə bağlıdır. Biri digərsiz ola da bilməz. Odur ki, tariximizi, keçmişimizi bilməliyik. Müxtəlif ölkələrin millət və xalqlarının tarixini yada salın. Görün bir, Paris fransızlar, London ingilislər, Madrid ispanlar, Roma italyanlar, Berlin almanlar, Varşava polyaklar üçün nə qədər vacib əhəmiyyətə malik olmuşdur. Moskva ruslar üçün, İstanbul türklər üçün, Bağdad iraqlılar üçün əziz olduğu kimi, Bakı da bizim üçün əziz və qiymətlidir".*

Qılman İlkinin bütün nəsillərə yazılı əmanəti olan "Bakı və bakılılar" kitabının "Qədim şəhər" fəslində Bakının tarixini soraqlayanlar üçün zəngin məlumatlar (səh.10-17) vardır. Bəzi məqamlara diqqət yetirin: "1826-cı ildə Bakıda olmuş görkəmli səyyah Zeynalabdin Şirvani yazırdı: "Bakını Badikubə də adlandırırlar. Çünki bu yerdə daim küləklər əsir. Buna görə də burada evlərin özülünü yonulmuş daşlardan qoyur, həyətləri və damları qırla örtürlər".

Kitabxanada keçiriləcək tədbirlərdən ən möhtəşəmi ədəbi-bədii gecədir. Qılman İlkinin xatirəsinə həsr olunmuş *"Yaradıcılıq yollarında"* adlı **ədəbi-bədii gecəyə** Azərbaycanın görkəmli ədiblərini, sənət-söz adamlarını dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. Ədib haqqında slayd göstərildikdən sonra tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

***I aparıcı:*** Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus mövqeyə malik sənətkarlardan biri kimi uzun illər çoxcəhətli səmərəli fəaliyyət göstərən və zəngin Azərbaycan nəsrinin

realist ənənələri zəmnində yaratdığı qiymətli əsərləri ilə milli mədəniyyətin inkişafına töhfələr verən Qılman İlkin ədəbi mühitdə yeri olan yazıçılardandır. Onun ədəbi irsi insanların, cəmiyyətin formalaşmasında böyük rol oynamışdır. Zamanın süzgəcindən keçərək oxucu marağına səbəb olan bu irs yazıçıya şöhrət gətirdi. Dövlət tərəfindən hər zaman yaradıcılğı yüksək qiymətləndirilən Qılman İlkin ən yüksək fəxri adların daşıyıcısı oldu. Ona etimad göstərildi. Hər zaman qayğını üzərində hiss edən ədib dünyasını dəyişdikdən sonra da ədəbiyyata bəxş etdiyi töhfələrə görə yad olunur, sənəti və sənətkarlığı haqqında xoş fikirlər söylənilir.

Bir əsrə yaxın onun qələmi işləyib, ömrünü ədəbiyyat işinə həsr etmişdir. Bu yazıçı üçün böyük yaşdır. Bu müddət ərzində ədib ömrünün hər günü, saatı gərgin düşüncələr, axtarışlar içində keçir. Lakin bu illər, yaşanmış ömür Qılman İlkini yorub əldən salmamışdır.

***II aparıcı:*** Qılman İlkin öz kino ssenarilərində maraqlı, dinamik, gərgin dramatik, konflikt və sujet ustası, bir-birindən fərqlənən tutarlı xarakterlər yaradıcı kimi nəzərimizi cəlb edir. Müəllifin nəhayət təmiz komediya janrına müraciəti də əlamətdardır.

Hekayə milli nəsrin təməl janrıdır. Q.İlkin isə hər şeydən əvvəl milli nəsrin gözəl, realist ənənələri, mənəvi və sənətkarlıq dəyərləri əsasında formalaşmış yazıçılarımızdandır. Yazıçının “Küləkqıran”, “Yalqızaq”, “Bir parça səma”, “Fırtına, insan nə vaxt” lap bu yaxınlarda çap etdirdiyi “Qatil” hekayələri , habelə digər əsərləri bu janrın onun nəsrinin əsas daimi bir janrı olduğunu təsdiqləyir. Qılman İlkinin hekayələri maraqlı və özünəməxsusdur, əsasən realist-lirik üslubda yazılmasıdır. Bununla belə etiraf etməliyik ki, hekayə ədibin nəsri üçün hər nə qədər doğma və əsas bir janr olsa da, o, öz nəsrini yalnız bu janrla məhdudlaşdırmamışdır. Q.İlkin ədəbiyyata hekayə ilə gəlib, arada povestlər, romanlar, kinossenarilər yazsa da,

hekayədən heç vaxt əl çəkməyib. Çalışıb ki, bu kiçik janrda bir povestdə demək istədiyini deyə bilsin. Qılman İlkinin hekayələri mövzuca rəngarəngdir. Onu da qeyd edək ki, onların bir çoxu gənclərinin həyatına həsr edilib.

Yazıçının yaradıcılığında uşaqların və gənclərin həyatına aid mövzular əsas yer tutur. "Bahar tüstüləri", "Sahildə" və başqa kitablarında yazıçının bir sıra maraqlı və mənalı hekayələri toplanmışdır. Uşaqların həyatından və müxtəlif mövzulardan bəhs edən bu hekayələr maraqlıdır. "Qalada üsyan" və "Şimal küləyi", romanları da uşaqlara qəhrəmanlıq, mərdlik, kimi yüksək keyfiyyətlər aşılayır. "Qalada üsyan" romanı əsasında film çəkilmişdir.

***I aparıcı:*** Qılman İlkin həm də ədəbi prosesin təşkilatçısı kimi, jurnal redaktoru, nəşriyyat başçısıkimi qızğın fəaliyyəti də məhsuldar və səmərəli olmuşdur. Məlumdur ki, 60-cı illərdə Qılman İlkin bir müddət "Azərbaycan" jurnalının baş redaktoru olmuşdur. Bu o illərdir ki, ədəbiyyatımız özünü yeni, daha bir mürəkkəb mərhələsinə daxil olurdu. Q.İlkin öz fəaliyyəti ilə jurnalı ədəbi prosesin sürətli yeniləşməsinin əsas sahəsinə çevirdi. Bu isə yeni bir ədəbi mərhələnin təşəkkülü üçün çox mühüm və dəyərli bir amil idi. Qılman İlkinə böyük, zəngin, qaynar bir ömür yaşamaq qismət olmuşdur. O, ömrünün sonunadək qələmi yerə qoymamışdır və hər zaman ilhamla, şövqlə yazıb-yaratmışdır. Onun qələmi daim yaddaşa, tarixə, müasirliyə müraciət etmişdir. Yazıçı səadəti yaradıcılıqdadır.

Qılman İlkin Azərbaycan ədəbiyyatının, ədəbi-bədii jurnalistikanın inkişafında böyük xidməti olan yazıçı kimi hər zaman dövlət tərəfindən qiymətləndirilib. 105 yaşlı yazıçının xatirəsi dövlət səviyyəsində hər zaman əziz tutulur.

**Ədəbiyyat siyahısı**


***Əsərləri***

Seçilmiş əsərləri : 2 cilddə. - Bakı : Avrasiya Press, 2006. - (Müasir Azərbaycan ədəbiyyatı).

C.1 : hekayələr, povestlər, "Dəniz həmişə göy olmur" və "Dağlı məhəlləsi". – 232 s.

C. 2 : “Qalada üsyan”. – 408 s.

Köhnə Bakını tanıyırsanmı. - Bakı : Şirvannəşr, 2004. - 116 s. : şək.

Türk ordusu Bakıda : Xatirələr. - Bakı : AzAtam, 2003. - 45 s. : şək.

Bakı və bakılılar. - Üçüncü nəşr. - Bakı : Nurlar, 2006. - 384 s. : foto.

Türk yazıçıları Bakıda. - Bakı : AzAtaM, 2007. - 39 s. : foto.

***Kitablarda***

**Həyat yollarında** // Azərbaycan nəsri antologiyası : 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. – C.4. – S. 34-76. - (Müasir Azərbaycan ədəbiyyatı).

***Dövri mətbuatda***

Müstəqillik Azərbaycan xalqının tarixi nailiyyətidir : [Tanınmış yazıçı Qılman İlkinlə söhbət / yazdı S.Kərimova] : "Azərbaycan müəllimi" - 80 // Azərbaycan Müəllimi. - 2014. - 21 fevral. **- № 7. -** S. 4. - Müsahibə ilk dəfə "Azərbaycan müəllimi" qəzetinin 18-24 oktyabr 2001-ci il tarixli sayında dərc olunub.

***Haqqında***

***Kitablarda***

**Axundlu Y.** Yazıçı ömrü : Qılman İlkin - 80 // Mənim ədəbi dünyam. - Bakı : Maarif, 1998. - S. 213-219.

**Şükürova E.** Nəsrimizin klassiki – Qılman İlkin // Sözə sevdalılar : ədəbi düşüncələr. I kitab. - Bakı : Nərgiz, 2011. – S. 368-373.

***Dövri mətbuatda***

**Qılman İlkinin 100** illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (8 iyul 2014-cü il) // Azərbaycan. - 2014. - 9 iyul. - № 144. - S. 1. ; Respublika. - 2014. - 9 iyul. - № 144. - S. 1.

**Azərbaycan Prezidenti Cənab** İlham Əliyevin Sərəncamı ilə Qılman İlkinin 100 illik yubileyi keçiriləcək : bu, milli mədəniyyət və incəsənətə ölkə başçısının göstərdiyi diqqət və qayğının daha bariz bir nümunəsidir // Səs. - 2014. - 10 iyul. - № 124. - S. 13.

**Dünyaminqızı Q.** "Axı biz niyə beləyik?" : Qılman İlkin - 100 // Kaspi. - 2014. - 11 oktyabr. - № 166. - S. 17.

**Əhmədov T.** Əsrin yaşadı : xalq yazıçısı Qılman İlkin haqqında // Yada düşdü. - 2014. - № İyul/Avqust. - S. 22-26.

**Əhmədov T.** Unudulmaz şəxsiyyət, böyük yazıçı : Qılman İlkin – 100 // Respublika. - 2014. - 7 sentyabr. - № 194. - S. 3.

**Hüseynov F.** Nəsrimizin zadəganı : Qılman İlkinin 100 illik yubileyi qeyd olundu // Mədəniyyət. - 2014. - 3 oktyabr. - № 76. - S. 3.

**Xalq yazıçısı Qılman** İlkinin 100 illiyinə həsr olunmuş yubiley gecəsi // Mədəniyyət. - 2014. - 1 oktyabr. - № 75. - S. 2.

**İlyasoğlu R.** Görkəmli ədibin xatirəsi anıldı : Qılman İlkin - 100 // Respublika. - 2014. - 3 oktyabr. - № 216. - S. 13.

**İsabəyli Q.** Mən Bakının istisini sevirəm : Qılman İlkin - 100 / Q. İsabəyli // Kaspi. - 2014. - 17 may. - № 84. - S. 20.

**İsabəyli Q.** Dəyərli əsərlər müəllifi : Qılman İlkin - 100 // Mədəni Həyat . - 2014. - № 10. - S. 14-16.

**İsabəyli Q.** Xalqına dəyərli əsərlər yadigar qoyub : Qılman İlkin - 100 // Azərbaycan. - 2014. - 12 avqust. - № 171. - S. 6.

**Mahmudov M.** Sənətkar şəxsiyyəti : Qılman İlkin - 100 // Ədəbiyyat qəzeti. - 2014. - 6 iyun. - № 21. - S. 10.

**Məsud R.** Bənzərsiz ömür yolu : xalq yazıçısı Qılman İlkin haqqında / R. Məsud // Respublika. - 2014. - 21 avqust. - № 179. - S. 4.

**Namazov Q.** Qılman İlkin (1914-2009) // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - **III hissə**: Sovet dövrü uşaq ədəbiyyatı, **VI fəsil**. - S. 320-325.

**Yusifli V.** Bakı tarixi, dəniz mavisi, şimal küləyi : Qılman İlkin - 100 // Azərbaycan. - 2014. - № 3. - S. 163-167.

**Yusifli V.** Qılman İlkin : 96 ilin xatirə insanı // Ədəbiyyat qəzeti. - 2018. - 20 oktyabr. - № 39. - S. 10-11.

# Əsrin yaşıdı Qılman İlkin

**(metodik vəsait)**


**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**



F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 14
Çapa imzalanmışdır: 05.03.2019
Tirajı:100
Pulsuz